**TAMARA ƏLİZADƏ**
**ATU**
**Səməd Vurğun 167**
**alizade64@mail.ru**

# AZƏRBAYCANIN MILLI BAYRAMI - NOVRUZ

**Xülasə**

Novruz Azırbaycan xalqının milli bayramıdır. Bu bayramın köklərinin araşdırılması ilə bağlı indiyədək xeyli tədqiqatlar aparılmışdır. Bu barədə Əzizə Cəfərzadənin, Bəhlul Abdullanın, Azad Nəbiyevin, Hüseyn İsmayılovun və başqalarının tədqiqatları vardır.

Xalqımız ayrı-ayrı hökmdarların təbliğ etdıyı bir sıra bayramları, mərasimləri zaman keçdikcə unutmuşdur. Lakin Novruz bayramı əsrlər boyu xalqın yaddaşında yaşamışdır. Azərbaycan xalqı bu bayramı gözləmiş, hörmətlə qarşılamışdır. Bu bayramı sevgi ilə qeyd etmişdir. Novruzda icra olunun mərasimlər, adətlər bu gün də yaşayır: tonqal qalanır, şam yandırılır, süfrə bəzənir, insanlar yeni libas geyinir, küsülülər barışır və s.

Məqalədə Novruz bayramı və bayram ərəfəsində keçirilən adətlər araşdırılır. Qonşu Türkiyə və İran ərazisində qeyd olunması ilə bağlı müqayisələr aparılır. Bu bayramın klassiklərin əsərlərində rast gəlindiyi məqamlar göstərilir.

Ümummilli lider Heydər Əliyevin Novruz bayramına münasibəti təhlilə cəlb edilir. Qeyd olunur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Novruz bayramı şənliklərində iştirakı, xalqla birlikdə olması insanlara ruh verir. Həmçinin Novruz bayramının 30 sentyabr 2009-cu il tarixində YUNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irs siyahısına daxil edilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük rolu olduğu diqqətə çatdırılır.

**Açar sözlər:** Novruz, milli, çərşənbə, od, adətlər, fal, nəğmələr, su, el, şirniyyatlar

Novruz bayramı türk-müsəlman dünyasının keçirdiyi "Ramazan", "İsmayıl qurbanı" kimi dini bayramlardan öz dünyəviliyi ilə fərqlənir.Türk-Oğuz tərəkəmə müdriklərinin, aqillərinin yorum-yozumuna görə Yeni ilin yeni günündə, yəni Martın 21-də "Sultan Novruz"da gecə ilə günüz bərabərləşir. Ana torpağa nəfəs gəlir, yerin donu açılır, ağaclara müqəddəs bahar suyu yüyürür. Təbiət qış yuxusundan oyanır, hər şey dirilib cana gəlir (4, 112).

Ümummilli Lider Heydər Əliyev qeyd edirdi ki, insanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz bayramı ən qədim dövrlərdən bəri xalqımızın sevinc və şadlıq bayramı olmuş, tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə, süni maneələrə məruz qalmasına baxmayaraq, bu günə qədər gəlib çatmışdır (1).

Azərbaycan xalqı bu bayramı xüsusi məhəbbətlə qarşılamağa, qeyd etməyə çalışmışdır. "Ancaq elə vaxtlar, zamanlar olubdur ki, bu bayramı xalqımızın əlindən almaq istəyiblər, bu bayramı keçirməyə mane olmaq istəyiblər. XX əsrdə biz bu dövrü yaşamışıq. Ancaq Novruz bayramının o qədər dərin kökləri var, Azərbaycan xalqının, millətimizin qəlbində o qədər yerləşib ki, heç bir qüvvə, heç bir hakimiyyət, heç bir siyasi sistem bu bayramı Azərbaycan xalqının əlindən ala bilməyibdir" (2).

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Novruz bayramı şənliklərində iştirakı, xalqla birlikdə olması insanlara ruh verir. Həmçinin Novruz bayramının 30 sentyabr 2009-cu il tarixində UNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın böyük rolu vardır.

Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti milli ənənələrin qoruması məsələlərini xüsusilə diqqətdə saxlamışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə

"Novruz bayramı münasibətilə hökumət məmurlarına müavinəti - Nəqdiyyə verilməsi haqqında qanun" adlanan sənəd bu barədə bir örnəkdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Novruz bayramının yüksək səviyyədə keçirilməsini təmin edən bu hüquqi sənəd Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən 1919-cu il martın 19-da qəbul edilmişdi. Rusiya əsarəti dövründə Novruz bayramı rəsmən qeyd olunmurdu. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Novruz bayramının keçirilməsinə xüsusi önəm verərək, bu məqsədlə 1919-cu il fevralın 18-də bayram münasibətilə müavinət verilməsi barədə Parlamentə qanun layihəsi təqdim etdi. Qanun layihəsi Parlamentin 17 mart tarixli iclasında müzakirə olundu. Müzakirədə Əhməd bəy Pepinov, Ağa Aşurov, Xudadat bəy Məlik-Aslanov, Məhəmməd Əmin Rəsulzadə və Mustafa Vəkilov çıxış etdilər. Layihə səs çoxluğu ilə qəbul olundu. Qanuna əsasən, hökumət məmurları əmək haqqına görə üç kateqoriyaya bölünərək, onlara məvaciblərinin 40-70 faizi qədər müavinət verilməsi qərara alındı. Hökumətin 1919-cu il 19 mart tarixli qərarı ilə nazirlər, onların müavinləri və hökumətin işlər idarələri rəislərinin mart ayı üçün maaşları iki dəfə artırıldı (3, 269).

Novruz bayramı ilə əlaqədar indiyədək bir sıra geniş tədqiqatlar aparılmışdır. Bu təqiqatlar arasında məsələlər müxtəlif istiqamətlərdə araşdırılmışdır. Bu barədə Əzizə Cəfərzadənin, Azad Nəbiyevin, Bəhlul Abdullanın, Hüseyn İsmayılovun və başqalarının maraqlı tədqiqatları diqqəti çəkir. Novruz yeni ilin ilk günüdür və fars dilindən tərcümədə "yeni gün" mənasını ifadə edir.

İnanclara görə, Novruzu hansı əhvalla qeyd edərsənsə, il boyu günün də həmin əhvalla davam edər. Odur ki, insanlar Novruzu şən əhval-ruhiyyədə keçirməyə can atır, şən, şad-xürrəm qarşılayır, bol süfrə açır, qohum-əqrəba ilə deyib-gülərək keçirirlər. Hətta dəfn mərasimi varsa, təxir edilərək ertəsi gündə icra olunmuşdur. Xəstə insanlar ziyarət edilir, küsülülər barışır.

"Novruz bayramı öz mərasimləri ilə birlikdə zaman-zaman Azərbaycanda hakim kəsilmiş dinlərindən hamıdan çox sadə təsərrüfat bayramı, yəni qışın yola salınması, yazın qarşılanması mərasimi olmuşdur. Məhz elə buna görədir ki, xalqımız müxtəlif dinlərin, məzhəblərin, siyasi sistemlərin, ayrı-ayrı hökmdarların təsis etdikləri onlarca bayramları, mərasimləri unutmuş, bunu isə insanı əməyə, zəhmətə, maddi nemətləri yaratmağa çağıran təsərrüfat bayramı kimi əsrlər boyu yaşatmış, indi də hər il gözləyir, hörmətlə qarşılayır, xüsusi məhəbbətlə icra edir (6, 115).

Tonqal qalamaq, od üzərindən tullanaraq "Ağırlığım, uğurluğum odda yansın", "Azar-bezarım odlara" kimi ifadələrin işlədilməsi atəşpərəstlikdə olduğu kimi odun müqəddəsliyi ilə deyil, qədim türklərdən gələn - odun təmizləyici rolu ilə bağlıdır. Novruz bayramı sona çatdıqdan sonra səməninin suya atılması ilk məhsulunqurban verilməsi kimi izah edilir. Həmçinin yumurta döyüşmək də qurbanvermənin izlərindəndir.

Novruz bayramının qeyd edilməsində bölgələrimizdəki müxtəlif adət-ənənələr də diiqəti çəkir. Novruz bayramı ərəfəsində "çillə çıxartmaq" adəti də bölgələrimizdə müşahidə edilir. Bəlli olduğu kimi, böyük çillə 40 gündür, kiçik çillə 20 gündür. Martın 21-nə qədər olan 1ay isə "boz ay" adlanır. Çillələrlə bağlı aşağıdakı nəğmələr qeydə alınmışdır:

Böyük çillə, boyu bir belə.
Gəldi elə, gülə-gülə.
Ağ gülünü də göstərdi,
Al gülünü də göstərdi.
Pay qoydum xurcununa,
Paylı olsun !
və ya
Kiçik çillə, boyu bir belə,
Hikkəsi bir belə.
Gəlişi oldu hayınan,
Gedişi oldu vayınan.
Əlində qırmanc
Eli, günü yandırdı.

Görndüyü kimi, Novruzla bağlı el arasında oxunan nəğmələr də, deyimlər də çoxdur. İnanclar daha da maraq doğurur:

Çərşənbədə lal su ilə fala baxarlar.

Övladı olmayan qadının başından çərşənbədə qırxaçar suyu tökərlər ki, övladı olsun.

Çərşənbədə çırağı, odu söndürməzlər.

İnanca görə, subay qız duzlu kökə yeyib yatar ki, yuxuda su verən oğlan onun gələcək qisməti olar

Dünyanın yaranmasında iştirak edən 4 ünsür ( su, hava, torpaq, od) bu bayram ərəfəsində 4 çərşənbə olaraq qeyd olunur. Birinci çərşənbə el arasında "əzəl çərşənbə", "su çərşənbəsi", ikincisinə "üskü çərşənbə", "od çərşənbəsi", üçüncüsünə "ata-baba günü", "ölü çərşənbə", "yel çərşənbəsi", sonuncuya "ilaxır çərşənbə", torpaq çərşənbəsi" deyilir.

Türkiyədə Novruz əsasən, Anadolu ərazilərində və 21 mart və ya 22 mart tarixində qeyd olunur. Lakin qeyri-iş günü olmur. Azərbaycanda içra edilən bir sıra adətlər də müşahidə edilir. Məsələn, qulaq falı adəti orada "qapı pusma" adı ilə icra olunur. Tonqal qalamaq adətinin isə bölgədə qeyd edilməsi ilə bağlı bir sıra rəvayətlər dolaşır ( Bu qeydi Türkiyədən təhsil almaq üçün gəlmiş tələbələrdən yazıya almışıq ). İranda isə Novruz 13 gün qeyd edilir. Od çərşənbəsindən başlayaraq Novruz ab-havası davam edir. Hazırda işlədilən təqvimdə həftə adlarına nəzər salaq: yekşənbə, doşənbə, seşənbə, çeharşənbə, pəncşənbə, şənbə ( Bu qeydi İrandan təhsil almaq üçün gəlmiş tələbələrdən yazıya almışıq ).

Tədqiqatçı Ş.Albalıyev bu barədə yazır: "Əgər İslam dünyasında Novruz bayramı Həzrət Əlinin qırmızı geyinib taxta çıxdığı günlə, yaxud Həzrəti Məhəmmədə peyğəmbərliyin verildiyi günlə əlaqələndirilirsə və hətta bu münasibətlə Novruz bayramında İslam dünyasının haram buyurduğu içkinin içilməsi yasq olunursa, bu, Novruzun təkcə türk dünyasında yox, həm də türk-islam dünyasında, bütövlükdə Şərq aləmində yayıldığını və insanları milli-dini birliyə - dünyadakı sabit əhval-ruhiyyəni, sülhü qoruyub saxlamağı xidmət edən Bayram olduğunu bir daha təsdiqləməkdədir. Eyni zamanda əgər Novruz bayramı, ümumiyyətlə, Adəm peyğəmbərin yaradılıb-xəlq olunduğu gün kimi düşünülürsə, bu fikir, bu ideya özü də birbaşa mifik-fəlsəfi-dini düşüncədə bütün bəşəriyyətin vahid babası sayılan Adəmin dünyaya gəldiyi gün kimi müqəddəs hesab olunur (5, 231).

Mənbələrdə Novruzun 2600 ildən çox yaşı olduğu qeyd edilir. Həmçinin klassiklərin əsərlərində Novruz adını müşahidə edirik. Məsələn dahi Nizami Gəncəvidə izləyirik:

Cəmşidin Novruzunda, Sədə bayramında,
Onda ki atəşkədələrdə ayinlər yenidən başlardı.
Hər tərəfdən ər üzü görməmiş gözəl qızlar
Evlərdən dışarı çıxardılar.

Məhəmməd Füzuli isə belə ifadə edir:

Hər yerdə ta Novruz ola,
Gül bustanəfruz ola,
Novruz tək Firuz ola
Əyyami şahi övliya.

Novruz bayramı bir mədəniyyət hadisəsi kimi öz təsirini təkcə türk-islam dünyasında yox, digər dinlərdə və millətlərdə göstərmişdir. Yəhudilərin "Pesah" bayramı, xristianların "Pasxa" bayramı öz mənşəyini Novruz bayramından götürür.

Demək, Novruz bayramı həm millətləri, xalqları, həm də dinləri bir-birlərinə yaxınlaşdıran-qovuşduran tolerantlıq örnəyi kimi bütün dünyada özünün iradəsini - mənəvi gücünü nümayiş etdirir (5, 231).

Odur ki, insan övladının dünyaya gəldiyindən ta dünyasını dəyişənədək bir-birini əvəz edən adət-ənənləri, mərasimləri, bayramları qoruyaraq gələcək nəsillərə ötürmək lazımdır. Bu istiqamətdə aparılan elmi təhlillər isə xalqın tarixinin, mədəniyyətinin, etnoqrafiyasının, dilinin öyrənilməsində olduqca əhəmiyyətlidir.

**Ədəbiyyat**

1. Əliyev H. Novruz bayramı münasibəti ilə Azərbaycan xalqına təbrik. 19 mart 2000-ci il
2. Əliyev H. Novruz bayramı münasibəti ilə keçirilən ümumxalq şənliyində nitq. 21 mart 2002-ci il
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cilddə. II cild. Lider Nəşriyyat, Bakı, 2005, 470 s.
4. Azərbaycan folkloru antalogiyası. XXI kitab. Qazax örnəkləri. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2012, 376 səh.
5. Albalıyev Ş. Novruz bayramı tolerantlıq örnəyi kimi. Azərbaycan folkloru və milli-mədəni müxtəliflik - Beynəlxalq Elmi-praktik Konfransın materialları. zaqatala, 2016, 237 səh., s. 230-234
6. Təhmasib M. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı, Mütərcim, 2010.

**T.Alizadeh**

**The national holiday of Azerbaijan - Novruz**

**Summary**

Novruz is the national holiday of the people of Azerbaijan. Numerous studies have been conducted so far on the roots of this holiday. There are studies of Aziza Jafarzade, Bahlil Abdulla, Azad Nabiyev, Huseyn Ismayilov and others.

Our people have forgotten a number of holidays and ceremonies, which have been preached by different rulers over time. But Novruz holiday has lived in the memory of the people for centuries. The people of Azerbaijan welcomed this holiday and met with respect, celebrated this holiday with love. There are ceremonies and customs that are being performed in Novruz: the bonfire is burning, the candle is lit, the table is decorated, the people wear new clothes, and so on.

The article examines the traditions of Novruz holiday and holidays on the eve of the holiday. Comparisons are taking place on the celebration of the holiday in Turkey and Iran. Here are the moments that are found in the works of classics.

National leader Heydar Aliyev's attitudes towards Novruz holiday are being analyzed. It is noted that the participation of the President of the Republic of Azerbaijan Ilham Aliyev in the Novruz holiday festivities and the fact that his being with the people gives people a sense of gratitude. At the same time attention is given to the fact that President of the Heydar Aliyev Foundation Mehriban Aliyeva has a great role in inclusion of Novruz holiday into the list of protected non-material cultural heritage of world nations of UNESCO September 30, 2009 year.

**Key words:** Novruz, national, Wednesdays, fire, customs , folk songs, water, people, sweets.

Т.Ализаде

**Национальный праздник Азербайджана - Новруз**

**Резюме**

Новруз - национальный праздник Азербайджанского народа. До сих порбыли проведены многие исследовании по изучению корней этого праздника. Об этоместь исследованииу Азизы Джафарзаде, Бахлула Абдуллаева, Азада Набиева, Гусейн Исмайлова и других. Наши люди забыли ряд праздников и церемоний, которые были провозглашены разными правителями.

Но праздник Новруз веками жил в памяти народа. Народ Азербайджана ждал и чтил этот праздник. Народ отпраздновал этот праздник с любовью. Церемонии и традиции, проводимые в Новрузе, живути сегодня: зажигают костер, свечизажигают, стол украшают, люди надевают новую одежду, мириться и т.д.

В статье рассматриваются праздник Новруз и традиции на кануне праздника. Проводятся сравнения по поводу празднования соседних Турции и Ирана. В этом празднике есть моменты, которые встречаютсяв творчестве классиков. Отношение общенационального лидера Гейдара Алиева к празднику Новруз анализируется.

**Ключевые слова:** Новруз, национальный, среда, огонь, традиции, гадание, песни, вода, край, сладости.

Redaksiyaya daxil olma tarixi: 1.04.2019
Çapa qəbul olunma tarixi: 17.04.2019

**Filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova** tərəfindən çapa tövsiyə olunmuşdur.